*Müəlliflər:*
**Səxavət Yusifov**
**Aytac Məmmədova**

# Biznes qurumları insan alveri cinayətinin subyekti kimi

## Giriş

İnsan alveri mütəşəkkil cinayətkarların narkotik və silah qaçaqmalçılığından sonra ən çox gəlir əldə etdiyi cinayətdir. 2017-ci ilə aid Beynəlxalq Əmək Təşkilatının hesablamalarına görə dünyada 40,3 milyon insan alveri qurbanı var.[1] İnsan alverinə qarşı mübarizə və cinayətkarların cəzalandırılmasını BMT-ə üzv olan əksər dövlətlər öhdəlik kimi götürmüşdür.[2] İnsan alverinə qarşı mübarizə biznes qurumlarının korporativ sosial məsuliyyət proqramlarına da daxil edilir. Xüsusilə də insan alveri qurbanlarının üstünlük təşkil etdiyi sektorlarda fəaliyyət göstərən biznes qurumları öz reputasiyalarını qorumaq üçün bu sahədə müxtəlif addımlar atırlar.

Biznes qurumları insan alverinə qarşı mübarizədə aktiv iştirak etməklə yanaşı, bu cinayətin subyekti kimi də çıxış edə bilir. Biznes qurumlarının məcburi əmək, fahişəliyə cəlbetmə və qulluqçuluq kimi insan alveri cinayətlərində subyekt və ya faydalanan şəxs kimi iştirakı mümkündür.

Hüquqi şəxslərin cinayət məsuliyyəti XX əsrin sonlarından etibarən cinayət hüququnda birmənalı olaraq qəbul edilmişdir.[3] Azərbaycan Respublikasında bununla bağlı tənzimetmə 2012-ci ildən Cinayət Məcəlləsinə əlavə edilmişdir.[4]

Son dövrlərdə hüquqi şəxslərin fərdi cinayət məsuliyyəti ilə yanaşı, onların insan hüquqları pozuntusuna görə də məsuliyyət daşıyıb-daşımaması məsələsi gündəmə gəlir. Ənənəvi beynəlxalq insan hüquqları hüququna əsasən insan hüquqları pozuntusuna görə dövlətlər məsuliyyət daşıyır. Lakin biznes qurumlarının getdikcə inkişaf etməsi və fəaliyyətlərinin çox saylı ölkələri əhatə etməsi onların insan hüquqlarının pozuntusu hallarında birbaşa və ya dolayı yolla iştirakına gətirib çıxarmışdır. Bu isə öz növbəsində biznes qurumlarının insan hüquqlarına görə öhdəlik daşıyıb-daşımaması məsələsini ortaya çıxarmışdır. Bu məsələyə dair BMT çərçivəsində bir sıra sənədlər hazırlanmış və işçi qrupları fəaliyyətə başlamışdır. Bu sahədə hazırlanan sənədlər arasında ən uğurlusu BMT-nin Biznes və İnsan Haqları üzrə Rəhbər Prinsipləri[5] hesab olunur.

Bu yazının məqsədi biznes qurumlarının insan alveri cinayətində necə iştirak etdiyini və bu iştiraka görə hansı məsuliyyət daşıyacağını araşdırmaqdır. İstər insan alveri cinayəti, istərsə də biznes qurumlarının konkret cinayətdə iştirakının yerli ədəbiyyatda araşdırılmaması yazını aktual və önəmli etməkdədir.

## I. Biznes qurumlarının insan hüquqlarına hörmət konsepsiyası ilə insan alveri cinayətinin qarşılıqlı əlaqəsinə ümumi baxış

İnsan hüquqlarının qorunması və təmin edilməsi bir öhdəlik kimi dövlətin üzərinə qoyulsa da, biznes qurumları da insan hüquqlarına hörmət etmək öhdəliyi daşıyır.[6] Bu yazının məqsədləri üçün insan hüquqları və biznes qurumları arasındakı əlaqə insan alveri aspektindən dəyərləndiriləcək.

Ümumilikdə biznes qurumlarının insan alverində istər dolayı, istərsə də birbaşa iştirakı geniş yayılmışdır. Məsələn, "McDonald's"ın "Happy Meal" menyusunda olan oyuncaqların vyetnamlı yeniyetmələr tərəfindən 12 saatlıq iş rejimində, əmək hüquqları pozulmaqla və ən kiçik səhvlərə görə böyük cərimələrin tətbiqi ilə hazırlandığı aşkar edilmişdir.[7] Banqladeş və Şri-Lankadan olan işçilərin gündəlik 14-15 saatlıq, həftəlik 7 günlük iş rejimində çalışdığı "Victoria's Secret"in İordaniyadakı müəssisələrini də buna nümunə olaraq göstərmək olar.[8]

Biznes qurumlarının insan hüquqlarına hörmət konsepsiyası bir sıra könüllü beynəlxalq sənədlərdə öz əksini tapmışdır. Bu cür sənədlər sırasına "İnsan hüquqları ilə bağlı transmilli korporasiyaların və digər biznes müəssisələrinin öhdəliklərinə dair 2003-cü il BMT Normaları" daxildir.[9] Sözügedən Normaların Preambulasına əsasən transmilli korporasiyalar və digər biznes müəssisələri, onların ofisləri və onlar üçün işləyən şəxslər Birləşmiş Millətlər Təşkilatının müqavilələrində və digər beynəlxalq sənədlərdə, məsələn Birləşmiş Millətlər Təşkilatının Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Konvensiyası kimi sənədlərdə nəzərdə tutulan ümumi qəbul edilmiş öhdəliklərə və normalara hörmət etməyə borcludurlar.[10] 3-cü normaya əsasən transmilli korporasiyalar və digər biznes müəssisələri məcburi və ya icbari əməklə məşğul olmamalı və bundan faydalanmamalıdır.[11]

Həmçinin bu cür sənədlərdən biri də on əsas prinsipdən ibarət başqa bir könüllü təşəbbüs olan "məsuliyyətli biznes təcrübələri" ilə bağlı BMT-nin Qlobal Sazişidir. 1 nömrəli prinsip tələb edir ki, "bizneslər beynəlxalq səviyyədə elan edilmiş insan hüquqlarının müdafiəsini dəstəkləməli və onlara hörmət etməlidir".[12] 2 nömrəli prinsipə görə onlar "insan hüquqlarının pozulmasında şərik olmadıqlarına əmin olmalıdırlar".[13] 4-cü prinsipə əsasən, bizneslər "məcburi və icbari əməyin bütün formalarının aradan qaldırılmasını" dəstəkləməlidirlər.[14] 5-ci prinsip isə "uşaq əməyinin effektiv ləğvini" tələb edir.

Korporasiyaların insan alverində iştirakı müxtəlif formalarada ola bilər. Korporasiyaların insan alveri aktlarını törətməsinin yollarını üç müxtəlif kateqoriyaya bölmək olar. Birincisi, şirkətlərin qurbanları bilavasitə və könüllü şəkildə işə götürdükdə, onları daşıdıqda, istismar ediləcəyi yerə köçürülmələri üçün tələb olunan sənədləri təqdim etdikdə və bu istismardan fayda əldə etdikdə baş verən ən bariz halları əhatə edir. Fahişəliyə cəlb olunaraq insan alveri qurbanına çevrilən qadınlar buna nümunə ola bilər. Bəzi hallarda şirkətlər xüsusi olaraq bu cinayəti törətmək və əldə edilmiş gəlirləri yumaq aləti kimi yaradılır. Buna misal olaraq Argentinada yaradılmış kooperativi göstərmək olar. Belə ki, əmək müfəttişləri kooperativin sadəcə görünüş yaratmaq üçün olduğunu aşkar etdilər, əslində isə geyim istehsalı üçün işçilərin əməyi istismar olunurdu.[15]

İkinci kateqoriyada biznes qurumları işçilərin işə qəbulu üçün işəgötürmə agentlikləri ilə razılaşırlar. Bu zaman işəgötürmə agentlikləri işçilərə iş barədə yanlış informasiyalar verir.

Həmçinin onlar bir çox hallarda işçiləri təhdid edir, onları təcrid edir və pullarını alırlar, nəticədə onlar insan alveri qurbanına çevrilirlər.[16]

Son kateqoriya isə biznes qurumlarının məhsul və ya xidmətlərindən insan alveri zamanı istifadə edilməsidir. Buna misal olaraq insan alveri qurbanlarının daşınması zamanı istifadə olunan hava yolu şirkətləri, otellər, gecə klubları, barlar və son dövrlərdə sosial şəbəkələr və onlayn platformalar da aid edilə bilər. Məsələn, *US v. Marvin Chavelle Epps işi* biznes qurumlarının insan alveri cinayətlərində dolayı iştirakına nümunə ola bilər. Bu işdə 16 yaşlı qız vebsayt vasitəsilə tanış olduğu bir adam tərəfindən insan alveri qurbanına çevrilir. Həmin şəxs başqa vebsayt vasitəsilə qızın oteldə cinsi istismarını reklam edir və daha sonra ünvanı qoluna yazdırmaq üçün qızı tatu salonuna aparır. Otel, vebsayt və tatu salonu qızın azyaşlı görünməsinə baxmayaraq lazımi ehtiyatlılığı göstərmir və nəticədə insan alverində dolayı yolla iştirak edir.[17]

Biznes qurumlarının insan alverində iştirakı məsələsi Azərbaycanda da diqqətdən kənar deyil. GRETA-nın (İnsan Alverinə qarşı Mübarizə üzrə Ekspertlər Qrupu) hökumətə ünvanladığı İnsan Alveri ilə Mübarizə haqqında Konvensiyasının icrasının qiymətləndirilməsinə dair Sorğu vərəqəsində biznes qurumlarının fəaliyyətinə nəzarət, monitorinqlərin aparılması və bu sahədə mövcud vəziyyətlə bağlı suallar əks olunur. Məsələn, İnsan alveri qurbanlarının insan alveri ilə əlaqədar biznesdən qorunması üçün hansı vasitələr var sulına cavab olaraq hökumət bildirmişdir ki, "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024- cü illər üçün Milli Fəaliyyət Planı"nda istehsal və xidmət sahələrində istehlakçıya qədər olan bütün mərhələlərdə insan alveri və məcburi əmək halları ilə bağlı risklərin öyrənilməsi, aşkarlanması, aradan qaldırılması və aidiyyəti dövlət orqanlarının birgə mübarizə tədbirlərinin həyata keçirilməsinə dair təkliflər hazırlanması nəzərdə tutulmuşdur.[18] Milli Fəaliyyət Planında bu təkliflərin hazırlanması Nazirlər Kabineti, Daxili İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin səlahiyyətinə verilmişdir.[19]

GRETA-nın 2018-2021-ci illər ərzində iş yerlərində aparılan təftişlərin sayı, eləcə də icbari iş zorakılığı məqsədi ilə insan alveri hallarının və onun qurbanlarının sayı haqqında statistik məlumatlara dair sualına isə hökumət tərəfindən Azərbaycan Respublikası ərazisində sahibkarlıq subyektlərində aparılan yoxlamaların 2015-ci il tarixindən dayandırıldığı cavabı verilib. Bu yoxlamaların dayandırılması sahibkarlıq subyektlər inin insan alverində iştirakını müəyyən etməyi çətinləşdirir. 2015-ci ildən "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanuna ayrı-ayrı vaxtlarda edilən dəyişikliklərlə sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması müddəti artırılıb. Sonuncu dəyişikliyə görə yoxlamalar 2023-cü il yanvarın 1-ə qədər dayandırılıb.[20] İnsan alverinin müəyyən edilməsi aspektindən yoxlamaların həyata keçirilməməsini ciddi problem hesab edirik. Yoxlamaların dayandırılması pozuntu hallarını müəyyən etməyin qarşısını alır və nəticədə statistikada süni azalma müşahidə olunur.

## II. Biznes qurumlarının törətdiyi insan alveri cinayətləri

### a) Məcburi əmək

İnsan alverinin ən geniş yayılmış növlərindən biri məcburi əməkdir. Məcburi əməyin qarşısının alınmasının bir sıra beynəlxalq tənzimləmə mexanizmləri mövcuddur.

2000-ci ildə düzəlişlər edilmiş Transmilli Müəssisələr və Sosial Siyasətlə bağlı Üçtərəfli Prinsiplər Bəyannaməsinə əsasən çoxmillətli müəssisələr rəqabət güclü olmayan işəgötürənlərin mövcud olmadığı inkişaf etməkdə olan ölkələrdə fəaliyyət göstərdikdə, hökumət siyasəti çərçivəsində mümkün olan ən yaxşı əmək haqqı, gəlir və iş şəraitini təmin etməlidirlər. Bunlar müəssisənin iqtisadi vəziyyəti ilə bağlı olmalı, lakin ən azı işçilərin və onların ailələrinin əsas ehtiyaclarını ödəmək üçün ağlabatan olmalıdır.[21]

Beynəlxalq Əmək Təşkilatı (bundan sonra BƏT) məcburi əməyin on bir göstəricisini müəyyən edir.[22] Bunlar: zəiflik vəziyyətindən sui-istifadə; aldatma; hərəkətin məhdudlaşdırılması; təcrid; fiziki və cinsi zorakılıq; qorxutma və təhdid; şəxsiyyəti təsdiq edən sənədlərin saxlanması; əmək haqqının tutulması; borca görə əsarət; ağır iş və yaşayış şəraiti və; həddindən artıq iş.

BƏT-in təlimatında deyilir ki, mövcud vəziyyətdə vahid göstəricinin olması bəzi hallarda məcburi əməyin mövcudluğuna kifayət edə bilər. Bununla belə, digər hallarda məcburi əmək halına dəlalət edən bir neçə göstəricinin olması tələb oluna bilər.

İndi isə aşağıda Azərbaycanda biznes qurumlarının törətdiyi məcburi əmək cinayətlərini araşdıracayıq. Bu işlərdən bəziləri barəsində məhkəmə qərarları olsa da, bir qismi ilə bağlı heç bir məhkəmə qərarı yoxdur. Bu işlər barəsində qeyd olunan məlumatlar mətbuatdan əldə edilmişdir.

Zoletic və digərləri Azərbaycana qarşı işində Bosniya və Herseqovina vətəndaşları "SerbAz" MMC vasitəsilə Azərbaycanda "Buta Saray" saray, "Bakı Ekspo" sərgi mərkəzi və "28 Mall" ticarət mərkəzi kimi böyük layihələrin tikintisində işlədilib və daha sonra bu şirkət tərəfindən aldadılıblar. İşə qəbul zamanı onlara hər saat üçün 5-7 dollar əməkhaqqı və zəruri yaşayış şəraiti vəd edilib. Lakin onlara 3-4 dollar ödəniş edilib, yaşayış şəraiti isə dözülməz olub. [23] AİHM bu işdə icbari əmək elementləri olduğunu müəyyən edib və Konvensiyanın 4-cü maddəsinin pozuntusunu tanıyıb.[24]

Azərbaycanda əmək istismarına daha çox tikinti sahəsində rast gəlinir. Mələsən, "Basqal Resort&Spa" otelinin tikintisində iştirak edən fəhlələr 40 saat əvəzinə 70 saat işlədilsələr də, əməkhaqqını ala bilmədiklərini bildirmişlər.[25] Sözügedən otelin tikintisini isə "Kontinent İnşaat" MMC həyata keçirib.[26]

Həmçinin "Şərq Bazarı" ticarət mərkəzinin bərpası layihəsində iştirak edən fəhlələrin də əmək haqları ödənilməyib. Əmək haqları "Vepa Mühəndislik" və "MEK" adlı podratçı şirkətləri tərəfindən verilməli olsa da, həmin şirkətlər bundan boyun qaçırıblar.[27]

2018-ci il üzrə hökumətin GRETA-a verdiyi məlumata görə 2018-2021-ci illərdə "Vətəndaş müraciətləri haqqında" Azərbaycan Respublikası Qanunun tələblərinə uyğun olaraq müraciətlərə

baxılması zamanı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 7 halda işçini əmək funksiyasına aid olmayan işi (xidməti) yerinə yetirməyə məcbur etmə faktı aşkarlanmış və işəgötürən inzibati məsuliyyətə cəlb edilərək 7200 manat məbləğində inzibati cərimə edilmişdir.[28]

Məcburi əmək eyni zamanda uşaq əməyinin istismarını da ehtiva edir. İnsan Alverinə qarşı Mübarizə üzrə Milli Koordinatorun 2017-ci il üzrə illik hesabatı Azərbaycanda uşaqların məcburi əməyin qurbanına çevrilməsinin potensial təhlükə olaraq qaldığını göstərib.[29] Sonuncu, yəni 2020-ci il üzrə hesabatda isə uşaq əməyinin istismarının qarşısının alınması üzrə reydlərin davam etdirildiyi qeyd edilib.[30] Azərbaycanda uşaq əməyinə daha çox kafe və restoran kimi kiçik sahibkarlıq obyektlərində rast gəlinir.[31]

Uşaq əməyinin istismarı məsələsi son dövrlərdə Azərşəkərin fəhlələrini daşıdığı iddia olunan mikroavtobusun qəzaya düşməsi ilə gündəmə gəlmişdir.[32] Qəzada xəsarət alanlar arasında 13-15 yaşlı uşaqlar da olmuşdur.[33] Lakin sonradan "Azərşəkər" MMC-nin verdiyi açıqlamada bilidirilib ki, "Qəzada yaralanan bir nəfər fərdi sahibkardır. Müqavilə şəklində bölgədə yerləşən şirkətlərlə əməkdaşlıq edir".[34]

Azərbaycanda əmək qanunvericiliyinə riayət olunmasına dövlət nəzarəti Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) yanında Dövlət Əmək Müfəttişliyi (DƏM) tərəfindən həyata keçirilir. Buna görə də uşaq əməyindən istifadənin qarşısının alınması, nəzarət edilməsi və bu sahədə inzibati tədbirlər görmək səlahiyyəti DƏM-ə aiddir.[35] Lakin DƏM-in uşaq əməyindən istifadə ilə bağlı gördüyü inzibati tədbirlərə dair nə ƏƏSMN-nin rəsmi internet saytında, nə də Dövlət Statisitika Komitəsinin saytında hansısa rəsmi hesabata və ya statistikaya rast gəlinmir. Sözügedən qurumun bu sahə ilə bağlı təbliğat və maarifləndirmə fəaliyyətinə dair ictimaiyyətə geniş məlumatlar verilsə də, inzibati fəaliyyətlərinə dair kifayət qədər məlumat açıqlanmayıb.[36] İnzibati fəaliyyətə dair əldə edilmiş sonuncu məlumat ƏƏSMN-nin Əmək siyasəti şöbəsinin açıqlamasıdır. Həmin açıqlamaya əsasən 2021-ci ildə işəgötürən tərəfindən 15 yaşına çatmamış şəxsin işə cəlb edilməsiylə bağlı cəmi dörd hal aşkar olunub və bu xətaya yol verən vəzifəli və hüquqi şəxslərə qarşı cərimə tətbiq edilib".[37]

Uşaq əməyinin istismarına dair statistik məlumatlara Milli Koordinatorun hesabatında rast gələ bilərik. 2021-ci ilə aid hesabata əsasən hesabat ilində ailə mühitindən, pedaqoji və ictimai təsir vasitələrindən kənarda qalan, küçələrdə işləyən və dilənçilik edən 450 uşaq aşkarlanmışdır. Nəticədə övladlarının təlim tərbiyəsi ilə bağlı üzərinə düşən vəzifələri yerinə yetirməyən 75 valideyn barəsində inzibati tənbeh tədbirləri görülmüşdür.[38] Lakin bu məlumat heç də bütün uşaq əməyi istismarı hallarını əks etdirmir.

Azərbaycanda uşaq əməyi ilə bağlı vəziyyət bəzi beynəlxalq təşkilatlar tərəfindən hazırlanan hesabatlarda da göstərilmişdir. Belə ki, "Save the Children" təşkilatının uşaq əməyini də ehtiva edən "Uşaqlığın sonu" indeksi üzrə 2021-ci il hesabatına əsasən əsasən Azərbaycan bütün quru və su sərhəd qonşularından geri qalaraq 186 ölkə arasında 93-cü yerdə olub. Həmin hesabata əsasən 2015-2020-ci illərdə Azərbaycandakı 5-17 yaşlı uşaqlar üzrə uşaq əməyi göstəricisi 6,5 faiz təşkil edib. [39]

Digər bir mənbə olan "Humanium"-un məlumatına əsasən isə dünya ölkələrinin uşaq hüquqları ilə bağlı reytinqinə görə ölkədə uşaq hüquqlarının həyata keçirilməsi səviyyəsini göstərən Uşaq Hüquqlarının Reallaşdırılması İndeksi üzrə Azərbaycan 130-cu yerdədir.[40]

**b) Fahişəliyə cəlbetmə**

Bildiyimiz kimi insan alveri cinayətinin bir növü də fahişəliyə cəlbetmədir. Hesablamalara görə hər il məcburi əməkdən istifadədən əldə edilən 150 milyard dollar qeyri-qanuni vəsaitin təxminən 2/3 hissəsini cinsi istismardan əldə edilən vəsait təşkil edir.[41] Bu sahədə də müxtəlif biznes qurumlarının fəaliyyətini görmək mümkündür. Korporasiyaların cinsi istismarla bağlı insan alverində iştirakına daha çox otelçilik, əyləncə və sosial media sektorlarında rast gəlinir.

Otel və mehmanxana xidmətləri fahişəliyə cəlbetmənin ayırlmaz hissəsi hesab olunur.[42] Araşdırmalar göstərir ki, Avropa mehmanxana sənayesindəki *(hospitality industry)* 1,14 milyon insan alveri qurbanın 80%-i cinsi istismarla bağlı qurban olmuş şəxslərdir.[43] Polaris[44] araşdırmasında müəyyən edilib ki, düşünülənin əksinə insan alverçiləri ucuz otellərdən istifadə etmirlər. Onlar otel seçərkən həmin müəssisənin hüquq-mühafizə orqanları ilə əməkdaşlıq edib-etməməsinə diqqət yetirirlər. Buna görə də daha çox otel zənciri françayzinqlərə üstünlük verirlər.[45] Otel şəbəkələri insan alverinə qarşı mübarizəyə dair müxtəlif fəaliyyətlərlə məşğul olur. Bu fəaliyyətlər üç səviyyədə, yüksək rəhbərlik, korporativ idarəçilik və personal səviyyəsində həyata keçirilir.[46] Məsələn, Marriott İnternational hər il 500.000-dən çox işçi üçün insan alveri ilə bağlı maarifləndirmə və qurbanları müəyyən etməklə bağlı təlimlər keçirir.[47] Bundan əlavə, Marriott İnternational insan alveri qurbanlarını mehmanxana sənayesində əmək fəaliyyətinə hazırlamaq məqsədi ilə fond proqramı da yaratmışdır.[48]

Digər insan alveri qurbanları ilə müqayisədə cinsi istismar qurbanları daha çox daşıma fəaliyyətində iştirak edirlər. Ona görə də fahişəliyə cəlbetmə cinayətində nəqliyyat şirkətlərinin də aktiv fəaliyyəti vardır. Potensial qurbanları və digər şəxsləri insan alverinə cəlb etmək, habelə fahişəliyə cəlb edilmiş qurbanların xidmətlərini reklam etmək məqsədilə internet saytları və sosial media şirkətləri insan alverində iştirak edirlər.[49]

Bu istiqamətdə Azərbaycanda da vəziyyət fərqli deyil. Hökumətin GRETA-ya verdiyi məlumata görə ölkədə cinsi istismara məruz qalan qurbanlar otel, klub-bar sektorlarında və kirayə tutulmuş mənzillərdə istismara cəlb olunublar.[50]

**c) Borca görə əsarət (debt bondage)**

Borca görə əsarət (debt bondage) insan alverinin elementlərindən biri kimi təsnif olunmaqla yanaşı həm də insan alverinin növlərindən biri kimi də qeyd olunur. Burada əsas məqam şəxsin borc qarşılığında işləməsidir. Əsasən Şərqi Asiya ölkələrində yayılmış bu praktikada şəxsin gördüyü işin dəyəri əksər hallarda onun real borcundan daha çox olur. Bəzən şəxs yalnız öz borcu üçün deyil, hər hansı ailə üzvünün borcu üçün də işləməli olur.

Köləliyin, qul ticarətinin və köləliyə bənzər qurumların və təcrübələrin ləğvi haqqında əlavə Konvensiyaya əsasən borca görə əsarət aşağıdakı kimi müəyyən edilir:

"*Borc əsarəti - borclunun şəxsi xidmətlərinin və ya onun nəzarəti altında olan şəxsin borcun təminatı kimi girov qoymasından yaranan vəziyyət və ya şərt, əgər bu xidmətlərin ağlabatan qiymətləndirilmiş dəyəri borcun ləğvi istiqamətində tətbiq edilmirsə və ya bu xidmətlərin müddəti və xarakteri müvafiq olaraq məhdudlaşdırılmırsa və müəyyən edilmirsə"*.[51]

## III. Biznes qurumlarının insan alveri cinayətlərinə görə məsuliyyəti

Bu başlıq altında kommersiya hüquqi şəxslərinin cinayət məsuliyyətinə cəlb edilməsində mövcud olan çətinliklər, insan alverinə görə birbaşa və dolayı cinayət məsuliyyəti və insan hüquqları pozuntusuna görə öhdəlik daşıyıb-daşımadığı araşdırılacaqdır.

### a. Biznes qurumlarının insan alveri cinayətinə görə məsuliyyətə cəlb edilməsində yaranan çətinliklər

İnsan alveri cinayətlərində biznes qurumlarının məsuliyyətə cəlb olunmasına çətinlik yaradan bir sıra faktorlar da mövcuddur. Bu çətinliklər sırasında ilk növbədə onların kompleks strukturunu qeyd etmək olar. Bir sıra hallarda təsisçi şirkət öz törəmə şirkəti vasitəsilə insan alveri cinayətindən faydalansa da, ölkə qanunvericiliyi törəmə müəssisənin fəaliyyətinə görə təsisçinin məsuliyyət daşımaması aspektindən onu məsuliyyətə cəlb etmir.[52]

İnsan alveri ilə bağlı məsuliyyətə cəlb edilmə üçün çətinlik yaradan məqamlardan biri də bu cinayətin müxtəlif ölkələri əhatə etməsidir. Xüsusilə də korporasiyalar xaricdəki törəmələri vasitəsilə insan alveri cinayətləri törədirlər. Bununla belə bir çox ölkələrin qanunvericiliyi insan alveri cinayətləri ilə əlaqədar ekstraterritorial yurisdiksiya nəzərdə tutur. Bu cür müddəalara ABŞ qanunvericiliyində, Avropa İttifaqının direktivində rast gəlmək olar.[53] Eyni zamanda "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 27-ci maddəsinə əsasən insan alveri ilə bağlı cinayət törətmiş Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər cinayətlərin törədilməsi yerindən asılı olmayaraq, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi əsasında cinayət məsuliyyətinə cəlb edilirlər.[54]

Digər bir çətinlik sübutetmə ilə bağlıdır. Bildiyimiz kimi dolayı iştirakda cinayət məsuliyyəti biznes qurumunun insan alverinin olduğunu bildiyi və bilməli olduğu halda yaranır və bunu sübut etmək heç də həmişə asan olmur.

### b. İnsan alveri cinayətinin birbaşa subyekti kimi cinayət məsuliyyəti

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (bundan sonra Məcəllə) hüquqi şəxslərin cinayət məsuliyyəti 15-2-ci fəsillə tənzimlənir. Həmin fəsildə hüquqi şəxslərə tətbiq ediləcək cinayət-hüquqi tədbirlərin növləri və onların hansı cinayətlərə görə məsuliyyət daşıyacaqları göstərilib. Məcəllə həmin cinayətlər sırasına insan alveri cinayətini də aid edib.[55]

Hüquqi şəxslərə tətbiq ediləcək cinayət-hüquqi tədbirlərə isə cərimə, xüsusi müsadirə, hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və hüquqi şəxsi ləğv etmə aiddir.

### c. İnsan alveri cinayətində dolayı iştiraka görə cinayət məsuliyyəti

Biznes qurumlarının insan alverində dolayı iştirakı zamanı onların məsuliyyəti məsələsi müzakirə mövzusudur. Bu sahədə ABŞ qanunvericiliyi biznes qurumlarını cinayət məsuliyyətinə cəlb edir. Belə ki, əgər biznes qurumu fayda əldə etdiyi fəaliyyətin hər hansı mərhələsində insan alverinin hər hansı bir növünün olma ehtimalını bilir və bu ehtimala kifayət qədər ehtiyatlılıqla yanaşmırsa, törədilmiş insan alveri cinayətinə görə məsuliyyətə cəlb olunur. Göründüyü kimi burada biznes qurumunun birbaşa cinayət törətməyinə ehtiyac yoxdur. İnsan alveri faktını bilərək və ya bilməli olduğu halda lazımi ehtiyatlılıq göstərməməsi (*reckless disregard*) cinayət məsuliyyətinin yaranmasına səbəb olur. Məsələn, hər hansı profildə fahişəliyin, insan alverinin təbliği halları varsa, burada profilin olduğu sosial şəbəkə məsuliyyətə cəlb olunur, çünki həmin profildən və postlardan gəlir əldə edir.[56]

Azərbaycan qanunvericiliyində biznes qurumlarının insan alverindən dolayı iştiraka görə məsuliyyətini əks etdirən birbaşa müddəa olmasa da, ümumi təhlildən bir sıra hallarda biznes qurumlarının insan alverində dolayı iştiraka görə məsuliyyətə cəlb olunduğunu söyləməyə imkan verir. Məsələn Cinayət Məcəlləsinin 244-cü maddəsinə əsasən fahişəliklə məşğul olmaq üçün əxlaqsız yuvalar təşkil etmə, saxlama və ya bu məqsədlər üçün mənzil sahələri vermə cinayət məsuliyyətinə səbəb olur.

Azərbaycan Rspublikasının Konstitusiya Məhkəməsinin "Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 244.1-ci maddəsinin şərh edilməsinə dair" 17 mart 2011-ci il tarixli qərarına (bundan sonra Qərar) əsasən bu məqsədlər üçün mənzil sahələri vermə, şəxsin mənzil sahəsindən əxlaqsızlıq yuvasının təşkil edilməsi və saxlanılması üçün istifadə olunacağını bilə-bilə mənzili əxlaqsızlıq yuvasını təşkil edən və ya onu saxlayan şəxsə verilməsi kimi başa düşülməlidir. Həmçinin sözügedən cinayət tərkibinin yaranması üçün əxlaqsızlıq yuvasının təşkil edilməsi üçün bir dəfə vermək kifayət edir.

Eyni zamanda Azərbaycan Respublikası 31 may 1996-cı il tarixli, 102-IQ saylı Qanunla BMT Baş Assambleyası tərəfindən 2 dekabr 1949-cu il tarixdə qəbul olunmuş «İnsan alverinə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı mübarizə haqqında» Konvensiyaya qoşulmuşdur. Konvensiyanın 1 və 2-ci maddələrinə görə bu Konvensiyanın Tərəfləri başqasının eyş-işrətini təmin etmək üçün: 1) digər şəxsə, hətta həmin şəxsin razılığı ilə, fahişəlik məqsədilə vasitəçilik edən, onu fahişəliyə sövq edən, yoldan çıxaran; 2) digər şəxsin, hətta həmin şəxsin razılığı ilə, fahişəliyini istismar edən hər bir şəxsi; 3) fahişəxana saxlayan və ya onu idarə edən, yaxud fahişəxanaları düşünülmüş şəkildə maliyyələşdirən, yaxud maliyyələşdirilməsində iştirak edən; 4) üçüncü şəxslərin fahişəlik məqsədilə istifadə edəcəyini bilə-bilə binanı və ya başqa bir yeri, yaxud onun bir hissəsini icarəyə verən, yaxud icarəyə götürən hər bir şəxsi cəzalandırmağı öhdələrinə götürürlər.

Göründüyü kimi yuxarıda qeyd olunan müddəalara əsasən biznes qurumlarının – bu halda otellərin fahişəliklə məşğul olmaq üçün mənzil sahəsi verməsi onun dolayı məsuliyyətinin yaranmasına səbəb olur.

### d. İnsan alveri cinayətinin birbaşa subyekti kimi insan hüquqları aspekindən məsuliyyət

Lakin bu qaydanın hüquqi şəxslərə, xüsusilə də böyük korporasiyalara tətbiqi praktikada çətindir. Adətən belə korporasiyaların fəaliyyəti çoxsaylı ölkələri əhatə edir və onların törətdiyi insan alveri daha əvvəl də qeyd olunduğu kimi korporasiyaların filialları və ya nümayəndəlikləri tərəfindən törədilən insan alveri cinayətlərinə görə cinayət məsuliyyətinə cəlb edilmə olduqca çətindir. Buna görə də şirkətlərin insan hüquqları pozuntularına görə öhdəlik daşıması məsələsi gündəmə gəlir. Belə öhdəliyin olması həm şirkətlərin əsas qurumlarının məsuliyyət daşımasına imkan verir, həm də qurbanlar pozulmuş hüquqlarına görə kompensasiya əldə edə bilərlər.[57]

Yuxarıda da bildirdiyimiz kimi biznes qurumlarının insan hüquqlarına təsirini tənzimləyən ən uğurlu sənəd BMT-nin Biznes və İnsan Haqları üzrə Rəhbər Prinsipləri hesab olunur.

Prinsiplərin əsas məqsədi fərdləri və icmaları biznes fəaliyyətinin insan hüquqlarına mənfi təsirlərindən qorumaq üçün dövlətlərə (hökumətlərə), şirkətlərə və ya digər maraqlı tərəflərə praktiki məsləhətlər verməkdən ibarətdir. Sözügedən sənədin 12 nömrəli prinsipi biznes qurumlarının insan alverindəki iştirakını birbaşa tənzimləyir. Həmin prinsipə əsasən şirkətlər öz fəaliyyətlərində məcburi və icbari əməyin bütün formalarının ləğvi və uşaq əməyinin ləğv edilməsi kimi prinsiplərə riayət etməlidirlər.

Rəhbər Prinsiplər şirkətlərə insan hüquqlarına hörmət edilməli olduğunu bildirsə də, hər hansı məcburedici bir norma müəyyən etməmişdir. Buna görə də hazırda biznes qurumları törətdiyi insan hüquqları pozuntularına görə birbaşa məsuliyyət daşımırlar.

## Nəticə

Göründüyü kimi, biznes qurumlarının fəaliyyətində insan alveri faktoru müəyyən rola malikdir. Bir tərəfdən bu qurumlar öz korporativ sosial məsuliyyətləri çərçivəsində insan alveri cinayətinə qarşı mübarizədə aktiv iştirakçı kimi çıxış edir, digər tərəfdən isə insan alveri cinayətinin birbaşa və ya dolayı subyektinə çevrilirlər.

Biznes qurumlarının insan alveri və digər insan hüquqları pozuntuları ilə əlaqəsini tənzimləyən bir neçə sənədi araşdırdıq. Bu sənədlərin hamısının əsas çatışmazlığı şirkətlər üçün məcburi öhdəliklər qoymaması və onlar üçün məsuliyyət müəyyən etməməsidir.

Bu sahədəki digər mühüm problem dövlətlərin, hökumətlərin effektiv nəzarət mexanizmləri qurmaması ilə bağlıdır. İnsan alveri cinayətini insan hüquqları pozuntusu kimi nəzərdən keçirsək, əsas öhdəlik dövlətin üzərinə düşür. Yazı daxilində nəzərdən keçirdiyimiz Azərbaycandakı insan alveri nümunələri göstərir ki, müvafiq qurumlar nəzarət və monitorinq fəaliyyətini effektiv şəkildə həyata keçirmirlər. Həyata keçirilən inzibati tədbirlərlə bağlı isə rəsmi məlumatlar ictimaiyyətə

açıqlanmır. Azərbaycanla bağlı digər müəyyən etdiyimiz problem isə sahibkarlıq yoxlamalarının 2015-ci ildən dayandırılmasıdır.

Beləliklə, Azərbaycandakı insan alveri ilə bağlı müvafiq problemləri azaltmaq üçün biznes qurumlarının, xüsusilə də insan alveri qurbanlarının üstünlük təşkil etdiyi sektorlardakı şirkətlərin fəaliyyətinə sahibkarlıq yoxlamaları və ya başqa yollarla nəzarət edilməsini, bu sahədəki dövlət qurumlarının fəaliyyətinə dair statistik və digər məlumatların ictimaiyyətə açıq formada paylaşılmasını tövsiyə edirik.

---

[1] International Labour Organization and Walk Free Foundation, "Global estimates of modern slavery: forced labour and forced marriage", 2017, s 9

[2] United Nations Information Service Vienna "More than 120 Nations Sign New UN Convention on Transnational Organized Crime, As High-level Meeting Concludes in Palermo" https://unis.unvienna.org/unis/en/pressrels/2000/cp392.html

[3] Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi "Hüquqi şəxslərin cinayət məsuliyyəti", Bakı, 2020, 6s https://genprosecutor.gov.az/storage/pages/rrvYHpw4seEj3Apj4wm4RT43Q5rWbzfN0h1fIMTk.pdf

[4] Azərbaycan Respublikası Cinayət Məcəlləsi, Fəsil 15-2, Hüquqi şəxslər barəsində tətbiq olunan cinayət-hüquqi tədbirlər

[5] United Nations Guiding Principles on Business and Human Rights

[6] Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplər

[7] Corpwatch, "Happy meals, unhappy workers", <https://www.corpwatch.org/article/happy-meals-unhappy-workers

[8] HUFFPOST, Victoria's Secret, Slave Labor And So-Called "Free Trade", <https://www.huffpost.com/entry/victorias-secret-slave-la_b_74261>

[9] A. Quayson, A. Arhin, "Labour Migration, Human Trafficking and Multinational Corporations", 2012, səh 13

[10] İnsan hüquqları ilə bağlı transmilli korporasiyaların və digər biznes müəssisələrinin öhdəliklərinə dair 2003-cü il BMT Normalarının Preambulası

[11] Yuxarıda 10, maddə 3

[12] BMT Qlobal Sazişi, 10 əsas prinsip, 2000-ci il, 1-ci prinsip, https://www.unglobalcompact.org/what-is-gc/mission/principles

[13] Yuxarıda 12, 2-ci prinsip

[14] Yuxarıda 12, 4-cü prinsip

[15] BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin databazası, işin nömrəsi: 3692/13, ARG064

[16] Silvia Rodríguez-López, "Criminal Liability of Legal Persons for Human Trafficking Offences in International and European Law", JOURNAL OF TRAFFICKING AND HUMAN EXPLOITATION; VOL. 1, NR. 1, 95-114, PARIS LEGAL PUBLISHERS ,2017, səh. 97

[17] US v. Marvin Chavelle Epps, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin databazası, işin nömrəsi: USA046

[18] GRETA, "Avropa Şurasının İnsan Alveri ilə Mübarizə haqqında Konvensiyasının İştirakçı Ölkələr tərəfindən icrasının qiymətləndirilməsi üzrə Sorğu vərəqəsi", s. 33, , https://rm.coe.int/reply-from-azerbaijan-to-the-questionnaire-for-the-evaluation-of-the-i/1680a62bfc

[19] ""Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020─2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenitinin Sərəncamı m. 4.1.4 https://e-qanun.az/framework/45470

[20] " Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycab Respublikası Qanunu https://e-qanun.az/framework/31093

[21] İƏİT, Transmilli Müəssisələr və Sosial Siyasətlə bağlı Üçtərəfli Prinsiplər Bəyannaməsi

[22] Məcburi əməyə qarşı mübarizə haqqında Xüsusi Fəaliyyət Planı, BƏT-in Məcbui Əmək Göstəriciləri, https://www.ilo.org/wcmsp5/groups/public/---ed_norm/---declaration/documents/publication/wcms_203832.pdf
[23] Zoletic and others v. Azerbaijan, no. 20116/12, 2021, §–110 https://hudoc.echr.coe.int/eng?i=001-212040
[24] Yenə orada, § 210
[25] Arqument "Prezident tabeliyində olan məmurların adının hallandığı otelin açılışında" https://arqument.az/az/prezident-tabeliyinde-olan-memurlarin-adinin-hallandii-otelin-acilisinda/
[26] Yenə orada
[27] Yenisabah, "Şərq Bazarı"nı tikən fəhlələrin pulu verilmir" https://yenisabah.az/serq-bazarini-tiken-fehlelerin-pulu-verilmir
[28] Yuxarıda 18, s. 43
[29] İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatorun "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair" 2017-ci il üzrə illik hesabatı
[30] İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatorun "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair" 2020-ci il üzrə illik hesabatı
[31] Bizimyol.info, "Bəzi kafe və restoranlarda da uşaq əməyinin istismarı ilə qarşılaşırıq" https://www.bizimyol.info/az/news/370739.html
[32] Vaxtmedia "Azərşəkər"in fəhlələrini daşıyan mikroavtobus QƏZAYA DÜŞDÜ" https://vaxtmedia.az/news/11662/azersekerin-fehlelerini-dasiyan-mikroavtobus-qezaya-dusdu-24-nefer-xesaret-aldi
[33] Azadmedia "Goranboyda "Azərşəkər"in fəhlələri qəzaya düşdü - Adlar" https://azadmedia.az/hadise/59044-goranboyda-azrkrin-fhllri-qzaya-dudu-adlaryenilnib.html
[34] Kriminal.az "Goranboyda baş vermiş qəza ilə bağlı "Azərşəkər" MMC-dən AÇIQLAMA – YENİLƏNİB" https://kriminal.az/az/article/46316
[35] Azps://kriminal.az/az/article/46316qəza ilə bağlı "Azərşəkər" MMC-liyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti haqqında Əsasnamə, III https://sosial.gov.az/uploads/files/2022/09/d%C6%8Fmx-%C9%99sasnam%C9%99.pdf
[36] "Uşaq əməyinin istismarına qarşı mübarizə sahəsində Azərbaycanda fəal dövlət siyasəti həyata keçirilir" https://www.sosial.gov.az/2387
[37] Oxu.az, "Ötən il uşaq əməyinin istismarı ilə bağlı neçə fakt aşkarlanıb? - AÇIQLAMA" https://oxu.az/society/571753
[38] İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatorun "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair" 2021-ci il üzrə illik hesabatı, s 15
[39] Save the Children, "Global childjood report 2021", s 3 https://www.savethechildren.org/content/dam/usa/reports/advocacy/2021-global-childhood-report.pdf
[40] Humanium, "Ranking of countries according to their respect for the Rights of the Child" https://www.humanium.org/en/rcri-world-ranking-by-countries/
[41] Profits and poverty: the economics of forced labour. International Labor Organization. Retrieved from: http://www.ilo.org/wcmsp5/groups/public/%2D%2D-ed_norm/%2D%2D-declaration/documents/publication/wcms_243391.pdf
[42] Forbes, "Cracking The $150 Billion Business Of Human Trafficking" https://www.forbes.com/sites/carmenniethammer/2020/02/02/cracking-the-150-billion-business-of-human-trafficking/?sh=6c3ed0814142
[43] Ehl insights, "Human Trafficking and the Hotel Industry: How to Prevent It" https://hospitalityinsights.ehl.edu/human-trafficking-hospitality-industry
[44] Birləşmiş Ştatlarda insan alveri ilə bağlı milli qaynar xətti idarə edən qeyri-kommersiya təşkilatı
[45] Polaris, "On-Ramps, Intersections, and Exit Routes: A Roadmap for Systems and Industries to Prevent and Disrupt Human Trafficking", 2018 https://polarisproject.org/wp-content/uploads/2018/08/A-Roadmap-for-Systems-and-Industries-to-Prevent-and-Disrupt-Human-Trafficking-Hotels-and-Motels.pdf
[46] Yuxarıda 39 https://hospitalityinsights.ehl.edu/human-trafficking-hospitality-industry

[47] Marriott International, "Marriott International Has Trained 500,000 Hotel Workers to Recognize the Signs of Human Trafficking" https://news.marriott.com/news/2019/01/18/marriott-international-has-trained-500-000-hotel-workers-to-recognize-the-signs-of-human-trafficking

[48] Yenə orada

[49] Yuxarıda 47

[50] Yuxarıda 18, s. 34, https://rm.coe.int/reply-from-azerbaijan-to-the-questionnaire-for-the-evaluation-of-the-i/1680a62bfc

[51] Köləliyin, qul ticarətinin və köləliyə bənzər qurumların və təcrübələrin ləğvi haqqında əlavə Konvensiya, maddə 1.a

[52] Yuxarıda 17, səh 106

[53] Business&Mototrcoachnews, Human trafficking creates liability concerns for businesses <https://www.busandmotorcoachnews.com/human-trafficking-creates-liability-concerns-for-businesses/#:~:text=Businesses%20are%20liable%20for%20damages,laws%2C%20according%20to%20the%20lawsuit.>

[54] "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu, 27-ci maddə

[55] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, m 99-4.5 https://e-qanun.az/framework/46947#_edn161

[56] Pillsbury, Prosecuting Corporations that Benefit Financially from Human Trafficking, <https://www.pillsburylaw.com/en/news-and-insights/prosecuting-corporations-that-benefit-financially-from-human-trafficking.html>

[57] Yücel Dericiler "Şirketlerin İnsan Haklarına İlişkin Yükümlülüklerinin Niteliği ve Temellendirilmesi Sorunu: Saygı Gösterme Sorumluluğu Ne Yükler?", Antalya Bilim Üniversitesi Hukuk Fakültesi Dergisi (ABÜHFD) | Cilt: 6 – Sayı: 11 – Haziran 2018